DÖVLƏT VERGİ XİDMƏTİ

# Sosial xarakterli güzəştlərin təbiqi ilə əhalinin vergi yükü azaldıldı

**Əmanətlərin uzunmüddətli yerləşdirilməsinin təşviq edilməsi məqsədilə**

- fiziki şəxslərin hər bir bankda milli valyutada olan depozitləri üzrə hesablanan aylıq faiz gəlirlərinin **200 manatadək** olan hissəsi müddətsiz,
- fiziki şəxslərin hər bir bankda milli valyutada olan depoziti **18 ay və daha artıq müddətə yerləşdirildikdə** və depozitin məbləği **18 aydan tez olmayaraq ödənildikdə** isə hesablanan faiz gəlirlərinin tam hissəsi **3 il müddətinə gəlir vergisindən azad edilmişdir.**

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

**BAKI — 2024**

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

**Hədiyyələrə, təhsil haqlarının ödənilməsinə, birdəfəlik müavinətlərə və idman yarışlarından əldə edilmiş mükafatlara verilən güzəştlərin artırılması məqsədilə**

- hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsi **1000 manatdan 2500 manata** qaldırılmış,
- beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı **respublika idman federasiyaları (assosiasiyaları) tərəfindən verilən mükafatların tam dəyəri gəlir vergisindən azad edilmişdir.**

**"ƏDV geri al" layihəsi çərçivəsində əldə olunan faydaların (keşbəklərin) vergiyə cəlb edilməməsi məqsədilə**

- fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına (ƏDV keşbək) görə əldə olunan gəlirlər gəlir vergisindən azad edilmişdir.

**Xarici sularda fəaliyyət göstərən dənizçilərin sosial təminat hüquqlarının yaxşılaşdırılması məqsədilə**

- dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinin **vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatı**nın Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş məbləği **gəlir vergisindən azad edilmişdir**.

**Fiziki şəxsin şəxsi istifadəsi üçün idxal etdiyi malların aksizdən azad olunmuş növlərinin artırılması məqsədilə**

- **2 litr** energetik içki;
- **20 ədəd** siqarilla və **10 ədəd** siqar;
- **3 ədəd** birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;
- **100 ədəd** alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar;
- **100 qram** çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;
- **50 millilitr** elektron siqaretlər üçün maye **aksizdən azad edilmişdir**.